UOT 81
https://doi.org/10.59849/2311-8482.2025.3.94

SƏMİNƏ ABDULLAYEVA*

# AZƏRBAYCAN DİLİNDƏ ŞİFAHİ DİL VƏ NORMA PROBLEMİ

*Məqalədə aparılan təhlil və araşdırmaların nəticəsi kimi normanın aşağıdakı parametrlərə malik olduğunu göstərmək mümkündür.*

*Norma tarixi kateqoriyadır. Norma ixtiyari və icbari nitq aktlarının fəaliyyəti ilə baş verir. Normalar dildə informasiya mübadiləsinin, yayılmasının, ötürülməsinin və saxlanılmasının daxili mexanizmini təşkil edir. Norma tarixi kateqoriya olduğu üçün dəyişə bilir, təkmilləşir, sabitləşir. Norma dil elementlərində tarazlığı qoruyur, nitq aktı intensivliyinin tələbinə uyğun olaraq onların qaydalar sistemini tənzim edir. Norma sosial xarakter daşıyır və ayrı-ayrı sosial dil mühitində özünün fəallığını nümayiş etdirir. Beləliklə, normanı müxtəsər şəkildə aşağıdakı kimi xülasə üzrə ifadə etmək mümkündür: Norma tarixən ixtiyari və icbari nitq aktları əsasında formalaşan, informasiyaların intensivləşməsi ilə dəyişən, yeniləşən, müvafiq sosial mühitdə işlənən, dil strukturuna dair bütün elementləri tənzimləyən qaydalar sistemidir. Daha müxtəsər deyilsə, norma ruhunu, nəfəsini təşkil edən qaydalar sistemidir.*

***Açar sözlər**: danışıq dili, şifahi dil, norma anlayışı, informasiya*

## Giriş

Dilçilikdə şifahi dil problemi barədə demək olar ki, bir-birindən fərqli fikir və mülahizələr mövcuddur. Şifahi dil bir çox hallarda verbal ünsiyyət vasitəsi kimi nəzərə alınır və bu baxımdan da danışıq dili ilə oxşar parametrlərə malik bir yanaşma üsulu çərçivəsində şərh olunur. Lakin dilçilikdə yazılı (ədəbi) dil ilə yanaşı şifahi (ədəbi) dil anlayışı barədə bəhs olunursa bu o deməkdir ki, şifahi ədəbi dil ilə şifahi danışıq dil üslubu arasında da müəyyən norma fərqlərinin mövcudluğu istisna deyildir. Ona görə də ilk növbədə dildə norma anlayışının özünün müəyyənləşdirilməsini və norma çərçivəsində yazılı və şifahi ədəbi dil problemləri ilə yanaşı şifahi danışıq dili üslubuna məxsus parametrlərə aydınlıq gətirilməsinə ehtiyac vardır. Norma ümumilikdə insanların ictimai dünyagörüşündə formalaşmış geniş qaydalar sistemini özündə əks etdirən fəlsəfi-psixoloji bir kateqoriyadır. Norma kateqoriyası fəlsəfədən bir anlayış kimi maddi aləmə məxsus ən ümumi xassələri özündə ehtiva edir. Normada obyektiv varlığın mühüm hadisə və proseslərini, qayda və ardıcıl əlaqələrini özündə sistemli şəkildə ümumiləşdirir. Norma təbiətdə, cəmiyyətdə mövcud olan bütün hadisə və proseslərə məxsus qaydalar sistemindən ibarətdir. *Norma* termininin özü mənşəcə latın dilinə məxsusdur. Hərfi mənada *norma bucaqlıq* anlayışı bildirir. Terminoloji mənada isə qayda, təbiət və cəmiyyət hadisələrinə dair bütün proseslərin hüdudlarının tənzimləyici qaydaları anlayışına malikdir. Norma elə bir sistemdir ki, böyüklü-kiçikli bütün təbiət və cəmiyyət hadisələrinin nizamı onunla ölçülür. Normadan kənara çıxma hadisəsi fəsaddır. Məsələn, yağışın normadan artıq düşməsi, istiliyin normadan kənar baş verməsi, göy cisimlərinin qravitasiyasında qeyri-normallıq və s. təbiətdə nizamın pozulmasına, fəlakətlərin baş verməsinə səbəb ola bilər. İnsan cəmiyyətində iş norması, hər hansı fəaliyyət sahəsinin hüdudlarına aid normalar, əxlaq norması, etik və estetik normalar, hüquqi, yaşayış, sağlamlıq, davranış və s. normalar mövcuddur.

## Əsas təhlil

Dilin ən kiçik elementləri olan fonemlərə aid normaların əsasında sözlər, sözlərdən qrammatik elementlər, söz və qrammatik elementlərin vəhdətindən isə cümlələr formalaşır. Bütün dil elementlərinin birlikdəki normativliyi isə dil-nitq prosesini nizamlayır, insanlar arasında informasiya mühiti yaradır. Azərbaycan dilçiliyində norma və onun linqvistik funksionallığı barədə demək olar ki, xüsusi bir tədqiqat aparılmamışdır. Lakin fonetika və fonetika ilə müəyyən

kateqoriyaların izahında, həmçinin dil qaydalarına dair bu və ya digər şərhlərdə norma anlayışı barədə müxtəsər məlumatlara rast gəlmək olur. Norma haqqında ilkin və müxtəsər məlumata Ə.Dəmirçizadənin "Azərbaycan dilinin üslubiyyatı" kitabında rast gəlmək olur. Ə.Dəmirçizadə norma haqqındakı fikirlərini dil qaydalarının mühafizəsi ilə bağlı mülahizələri fonunda şərh edərək yazır ki, *"...dildən istifadə etmək, ehtiyatlı olmaq və onu pozmaq lazımdır. Bəs ümumxalq dilini pozmamaq nə deməkdir? Dilin ümumi qayda-qanunları vardır və bunların əsasında da ümumxalq dilinin normaları müəyyənləşdirilir. Həmin bu normalara riayət etmək ümumxalq dilini pozmamaq deməkdir: Bəs ümumxalq dilinin normaları nə deməkdir? Dil onu yaradan və yaşadanlara xidmət edən ünsiyyət vasitəsi olduğu üçün onun qayda-qanunları da həmin dildə danışanların inkişafı ilə əlaqədar surətdə inkişaf edir, dəyişir və təkmilləşir. Məhz buna görə bu və ya digər dilin normalarını müəyyən etmək üçün həmin dildən istifadə edənlərin nəyi məqbul və nəyi qeyri-məqbul saydıqlarını hesaba almaq zəruridir"* [3, s.8]. Göründüyü kimi, burada norma haqqında ümumi bir təsəvvür yaradılır. Bu təsəvvür odur ki, dil mütəhərrik olmasına baxmayaraq özünün müvafiq normaları çərçivəsində fəaliyyət göstərir. Əks halda informasiya mübadiləsi mümkün olmazdı, informasiyaların yayılması və mühafizəsi baş tuta bilməzdi. Müəllim norma şərhi ilə bağlı mülahizələrini təsbit etmək üçün uyğun nümunələrə müraciət edir və bununla bağlı aşağıdakı nəticəyə gəlir: "*Bütün növ hadisələri, halları hərtərəfli yoxladıqda belə nəticəyə gəlmək olur ki, dil normaları dilin daxili inkişaf qanunlarına uyğun gələn və həmin dildə danışanlar arasında məqbul sayılıb ümumiləşmiş olan qaydalardan ibarətdir*" [3, s.13].

Norma ilə bağlı Ə.Dəmirçizadənin "Müasir Azərbaycan dili" (Birinci hissə, üçüncü nəşr., adlı kitabında da fraqmental səciyyəli məlumatlara rast gəlmək olur. Burada əsas etibarı ilə orfoqrafiya və orfoepiya məsələlərindən bəhs edilərkən qısa şərhlər verilir. Məsələn, kitabın 141-ci, 147-ci, 149-cu, 151-ci, 154-cü, 168-ci, 194-cü və 220-ci səhifələrində norma anlayışı orfoepiya və tələffüz-nitq qaydalarının izahı ilə əlaqədar olaraq xatırlanır. Kitabın 149-cu səhifəsində isə norma anlayışı seçmə-əvəzetmə prinsipi üzrə şərh olunur: "*Uzun tarixi inkişaf yolu keçmiş olan müasir ədəbi dil normalarının müəyyənləşdirilməsində seçmə, əvəzetmə əməliyyatı mənbələri kimi indi ədəbi dilin irsi zəminindən də, yazılı ədəbi dilin vasitəsi olan yazı sistemindən də qohum, qonşu və əcnəbi dillərdən də istifadə olunur. Azərbaycan dilinin ədəbi tələffüz normaları seçmə və əvəzetmə əməliyyatı əsasında müəyyənləşdirilir*" [4, s.149]. Burada göstərilən "seçmə və əvəzetmə" prinsipi dil vasitələrində nitq intensivliyinə uyğun olaraq norma sabitliyi yaranması kimi başa düşülür. Əlbəttə ki, belə norma sabitliyinin baş verməsi hər hansı bir müdaxilədən kənardır və dilin zaman-zaman baş verən inkişaf problemləri ilə bağlıdır. Norma məsələsi A.Axundovun "Azərbaycan dilinin fonetikası" kitabında orfoqrafiya ilə bağlı xatırlanır və qeyd olunur ki, "*Bəzi əsərlərdə samitlərlə samitlərin ahəngindən də danışılır. Azərbaycan dilində belə qanun yoxdur, ondan yalnız orfoqrafiya qaydalarını tərtib edərkən bəzi şəkilçilərin yazılışı üçün istifadə edilir. Başqa sözlə, o, dilimizdə yalnız orfoqrafik norma kimi mövcuddur*" [1, s.216]. Göründüyü kimi, burada norma və onun funksional xüsusiyyətlərindən bəhs edilməsi əsas məqsəd olmamışdır. Ancaq dildə yazı qaydaları ilə bağlı olaraq norma haqqında xırda bir xatırlatma verilmişdir. Norma ilə bağlı B.Xəlilov da orfoqrafiya, yazı, dil-nitq və orfoepiya məsələləri ilə əlaqədar olaraq bəhs edir. Burada qeyd edildiyinə görə, məsələn, *gedəcək, gələcək* kimi sözlərin ayrı-ayrı dialektlər çərçivəsində müxtəlif şəkildə tələffüzü orfoqrafik normanın pozulmasıdır. Eyni zamanda, burada tələffüz normalarının pozulması hallarına da münasibət bildirilir və nitqin aydınlığı, dürüstlüyü prinsipini nəzərə aldıqda pozulma hallarının yolverilməz olduğu göstərilir [5, s.272]. A.Bayramov, Z.Məhərrəmov və M.İskəndərzadənin "Azərbaycan dili və nitq mədəniyyəti" adlı kitabında normaya ayrıca başlıq verilir. Burada normanın ümumi problemlərindən müxtəsər şəkildə bəhs

edilir. Burada Ə.Dəmirçizadədən gələn belə bir ifadə edilir ki, "*Norma yalnız seçilib əvəz olunmuş dilin bu və ya digər strukturu üçün ən optimal, bütün cəhətlərdən bəyənilmiş formasıdır... Bəzən dildə bir neçə variantın olması norma hesab edilir. amma dildə gedən inkişaf onlardan birini qəbul edir*" [2, s.112-113].

S.Sadıqovanın norma ilə bağlı bir məqaləsində də Ə.Dəmirçizadədən gələn ənənə ilə normanın "seçmə və əvəzetmə" prinsipi üzrə formalaşması ideyası təsbit edilir və qeyd olunur ki, "*Bu seçmə və əvəzetmə əməliyyatı nəticəsində ədəbi dil üçün normativ sayılan vahidlər, xüsusiyyətlər ədəbi dilə köçürülür, dil strukturunun bütün səviyyələri üzrə dil vahidlərinin ən nümunəvisi qəbul olunur, həmin sahə üçün bu norma hesab edilir. Normalar tənzimləyici funksiyanı icra edir*" [10, s.13]. Bu yazıda norma barədə deyilən ənənəvi mülahizə xatırlansa da bu xatırlatmanın özü əslində formal xarakter daşıyır və normanın baş verməsi prosesini məntiq baxımından ehtiva etmir. Hərçənd müəllifin özünün burada qeyd etdiyi mülahizə norma barədə daha qətiyyətli yanaşma kimi nəzərə alına bilər. Bu yanaşma odur ki, müəllif normanı "*Nitq fəaliyyətində obyektiv mövcud olan dil qaydalarının məcmusu kimi*" qiymətləndirir [10, s.13]. Burada normaların nitq fəaliyyəti ilə bağlı olması fikri "seçmə və əvəzetmə" ideyasına nisbətən irəliyə atılmış bir addım sayıla bilər. Çünki "seçmə və əvəzetmə" dil normalarına subyektiv müdaxilə kimi qəbul edilə bilməz. Dil normaları bilavasitə nitq aktlarının fəaliyyəti ilə tənzimlənir, yeniləşir və inkişaf edərək sabitləşir. Norma barədəki fikir və mülahizələrdə nədənsə ənənəvi "seçmə və əvəzetmə" prinsipi bir qayda olaraq sanki mexaniki şəkildə təkrarlanır. Məsələn, A.Qurbanovun "Müasir Azərbaycan ədəbi dili" kitabında da normanın ümumi problemləri haqqında bəhs edilir. Burada norma kateqoriyasının daxili strukturu ardıcıllıqla təsvir edilir və göstərilir ki, normativliyin ədəbi dil üçün başlıca şərt olduğu göstərilir. Ədəbi dilin ümumi normaları olmadan fikrin düzgün, aydın çatdırılmasının mümkünsüz olduğu göstərilir. Həmçinin qeyd edilir ki, "*Ədəbi dilin normaları daimi deyildir, zaman keçdikcə təkmilləşib dəyişir və zənginləşir. Dövrün tələbini ödəyə bilməyən normalar sıradan çıxır, yeni tələblər əsasında yaranan zəruri normalar isə dilə daxil olur. Hər bir yeni ədəbi norma xalqın ruhuna uyğun yaradılır*" [7, s.23].

M.İsmayılova normalardan bəhs edərkən onun çoxşaxəli sistemə malik bir kateqoriya kimi xarakter xüsusiyyətlərə malik olduğunu göstərir. Eyni zamanda normanı sinoron hadisə kimi yox, tarixiliklə müasirliyin vəhdətində fəaliyyət göstərən bir sistem kimi qiymətləndirir. Burada o da qeyd edilir ki, norma sosial xarakterlidir və xüsusi dil kollektivlərinə xidmət etmək baxımından da ictimai vəzifə daşıyır. Bununla da normanın ayrı-ayrı nitq areallarında mövcudluğu da onun ictimai funksiyalarından biri kimi qeyd olunur [6, s.66]. Burada müəllifin belə bir fikri maraq doğurur ki, *o dili funksionallaşdıran nitqlə idarə olunur. Dil nitqdə reallaşır, norma isə dildə tənzimləyici vəzifəsini yerinə yetirir* [6, s.67]. Lakin burada norma ilə əlaqədar bir məsələni də ayırd etmək lazımdır ki, o da normanın sistem təşkil edib-etməməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, norma dildə fraqmental hadisə deyildir, obrazlı desək, norma dilin ruhudur, nəfəsidir. Normasız dil yoxdur. Norma yoxdursa informasiya yoxdur, informasiya yoxdursa dil yoxdur. Norma dilin bütün struktur kateqoriyalarında mövcuddur və daim onları canlandırmağa xidmət edir.

Digər mənbələrdə də normaya dair göstərişlər burada qoyulan prinsiplərlə səsləşir və ya uyğun variantda ifadə edilir. Məsələn, "Dil norması və onun funksiyaları. Dil normalarının növləri" başlıqlı bir yazıda da norma oxşar şəkildə şərh olunur və göstərilir ki, "*Dil norması tarixən formalaşmış, xüsusən cəmiyyət tərəfindən qəbul edilən və müəyyən zaman çərçivəsində işlənən dil vasitələrinə məxsus qaydalardan ibarətdir. Dil normaları və ədəbi dil istifadəçilərinin nitq praktikasında əks olunan qanunauyğun proses və hadisələrin məcmusudur*" [11].

Göründüyü kimi bu şərhdə ənənəvi yanaşma üsulu diqqəti cəlb edir. Burada qeyd olunan "nitq praktikası" anlayışı əslində nitq aktları mənasında işlənməyib dilin praktik məsələsini

xatırladır. Bu da dil elementlərinin praktik intensivliyi sayəsində normaların müəyyən sosial arenada inkişaf perspektivlərinə malik olması kimi başa düşülür. "Böyük Rusiya Ensiklopediya"sında norma anlayışı aşağıdakı kimi şərh olunur: "*Dil norması dil sistemində daha artıq sabitləşmiş və ictimai kommunikasiya prosesində seçilmiş və möhkəmlənmiş ənənəvi realizasiya məcmusudur*" [9]. Bu yanaşmada normaların ənənəviliklə və ictimai kommunikasiya ilə bağlılığı, həmçinin, norma kimi təşəkkül tapan elementlərin «seçilməsi və möhkəmlənməsi» anlayışı ifadə edilir. Buradakı "seçilmə və möhkəmlənmə" anlayışı birbaşa Azərbaycan dili mənbələrindəki "seçmə və əvəzetmə" prinsipi ilə səsləşir.

Buradan aydın olur ki, rus dilçiliyindəki "seçmə və möhkəmləşmə" prinsipi Azərbaycan dilçiliyinə rus dilçilik ədəbiyyatında əvvəlcədən mövcud olan fikir və münasibətlərinin təsiri ilə daxil olmuşdur. Dil norması Ensiklopediyada verilən məlumata aid şərhdə göstərilir ki, vaxtı ilə bu problemlə bağlı L.V.Şerba (1880-1944), Q.O.Vinopur (1896-1947), E.S.İstrina (1883-1957), V.V.Vinoqradov (1895-1969), S.İ.Ojeqov (1900-1964), F.P.Filin (1908-1982), V.Q.Kostomarov (1930-2020), Y.S.Stepanov (1930-2012), V.A.İtspoviç (1918-1986), rus dilçiləri, həmçinin V.Materzius (1882-1945), B.Qavransk (1893-1978) və Q.Lerxnor (1935-2016) kimi xarici dilçilik nümayəndələri də məşğul olmuşdur. Buradan aydın olur ki, Azərbaycan dilçiliyindəki "seçmə və əvəzetmə" ideyasının ilkin müəllifləri Azərbaycan məkanına məxsus olmamışdır. Əlbəttə ki, elm, tədqiqat, araşdırma işləri bir yerdə dayanıb durmur, inkişaf edir və yeniləşmələrlə təmsil olunur. Beləliklə, norma anlayışından bəhs edilirsə onu sadəcə tarixən formalaşmış, seçilmiş, bəyənilmiş, cəmiyyətin istifadəsi üçün yararlı olan bir vasitə kimi qiymətləndirmək prinsipcə doğru olsa da funksional baxımdan yetərli saymaq mümkün deyildir. Çünki normaların baş verməsi sadə bir prosedurla boş yaranmış linqvistik vasitə deyildir. Norma yaranması birbaşa nitq aktları ilə bağlı olan problemdir ki, burada nitq aktlarının özünün təsir dairəsini müəyyənləşdirməyə ehtiyac vardır. Ona nəzərə almaq lazımdır ki, norma nitq mədəniyyətinin birbaşa predmetidir və nitq mədəniyyəti üslublarının formalaşması da normaların şaxələnməsi baş verən ekstralinqvistik bir hadisədir. Hərçənd ki, bəzi tədqiqat işlərində nitq mədəniyyətinin predmetinin mövcud olmadığı və ya müəyyənləşdirilməsinin çətin olması fikirlərinə də rast gəlmək olur [8].

Dildə fonetik, leksik, morfoloji, sintaktik, frazeoloji, semantik, onomastik, orfoqrafik, orfoepik normalar mövcuddur ki, bunların hər biri barəsində müvafiq araşdırmalar aparılmışdır. Fonetik normalar fonetik elementlərin söz tərkibində iştirakını, sıralanmasını, sistemliliyini, leksik normalar sözlərin anlaşıqlı olmasını, mənimsənilmə və işlənmə problemlərini, morfoloji norma şəkilçi elementlərinin ardıcıllıq prinsipini, sintaktik normalar söz birləşməsi və cümlələrin quruluşunu, frazeoloji normalar məna və anlayışların ekspressivliyini və emosionallığını, semantik normalar sözün məna mühitini, onomastik normalar adlarda mental xüsusiyyətlərin qorunmasını, orfoqrafik normalar düzgün yazı qaydalarını, orfoepik normalar danışıq, nitq tələffüz keyfiyyətlərini tənzimləyən vasitələrdən ibarətdir. Bütün normalar özlərinin reallıq imkanlarını nitq mədəniyyətinin müvafiq üslublarında təcəssüm etdirir.

Nitq mədəniyyətinin üslubları aşağıdakılardan ibarətdir:

1. *Yazılı (ədəbi) dil üslubu*

Yazılı (ədəbi) dil üslubu yazının meydana çıxdığı dövrdən tətbiq edilməyə başlamışdır. Yazılı dil üslubu əslində konservativ bir üslubdur. Burada dil qaydalarının sabit saxlanması tələblərinə riayət olunur. Bu ona görədir ki, informasiya mübadiləsi dil istifadəçiləri üçün müştərək xarakter daşısın, hamı öz informasiyalarını müvafiq norma çərçivəsində ifadə etsin, informasiyalar vahid şəkildə saxlanılsın, ötürülsün, yayılsın. Yazılı (ədəbi) dil üslubu icbaridir, onun pozulmasına yol verilmir.

2. *Şifahi (ədəbi) dil üslubu*

Şifahi (ədəbi) dil üslubu yazılı (ədəbi) dil üslubunun verbal səsləndirmə variantından ibarətdir. Şifahi (ədəbi) dilin özünün xüsusi normaları olmur. Şifahi (ədəbi) dilin normaları ümumi danışıq dilində cilalanmış normalarla yazılı (ədəbi) dilə tətbiq olunan icbari normaların sintezindən ibarətdir. Şifahi (ədəbi) dil mühazirə, məruzə, konfrans, simpozium və s. rəsmi tədbirlərdə səsləndirilən nitq üslubu formasıdır.

Şifahi (ədəbi) dil yazılı dilin səsləndirilmə variantı olsa da ifadə-nitq prosesində tamamilə yazılı dil normalarının tətbiqi ilə məhdudlaşmır. Şifahi (ədəbi) dilin səsləndirilməsində, həmçinin danışıq dili normalarına aid elementlərin işlədilməsi də qaçılmaz olur.

3. *Şifahi danışıq dili üslubu*

Şifahi danışıq dil üslubu daha çox məişət xarakterlidir. Şifahi danışıq dil üslubu dil istifadəçilərinin ümumi kommunikasiya vasitəsidir. Şifahi danışıq dili xalq arasında ümumi informasiya vasitəsi kimi formalaşdığından onun normaları zaman-zaman təkmilləşir, cilalanır, sabitləşir və yazılı dilin vahid qaydalar sisteminə çevrilir. Şifahi danışıq dili normaları həmçinin şifahi (ədəbi) dilin ümumi normaları kimi də işlənir.

4. *Yerli danışıq dili üslubu*

Yerli danışıq dili üslubu dildaxili çərçivədə areal səciyyə daşıyır. Ona görə də yerli danışıq dili üslubu dialekt-şivə səciyyəli dil kimi xarakterizə edilir. Yerli danışıq dili üslubunun normalarına həm şifahi danışıq dilində cilalanmış normalar həm də müvafiq dialekt-şivə tələffüzünə məxsus elementlər daxildir. Ona görə də yerli danışıq dili üslubu hər hansı dialekt-şivə hüdudu üçün səciyyəvi olsa da şifahi danışıq dili üslubu mühitində də anlaşıqlı olur.

## ƏDƏBİYYAT

1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı, Maarif, 1984, 392 s.
2. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, ULU, 2015, 236 s.
3. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, Azərtədrisnəşr, 1962, 271 s.
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili (Birinci hissə, üçüncü nəşr), Bakı, Şərq-Qərb, 2007, 256 s.
5. Xəlilov B. Müasir Azərbaycan dili. Fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı, Nurlan, 2007, 310 s.
6. İsmayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. 2 cilddə, I cild, Bakı, ADPU, 2016, 308 s.
7. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə, I c., Türkiyə, İstanbul, imak mətbəəsi, 2019, 464 s.
8. Nəsibli F. Nitq mədəniyyəti.https://az.wikibooks.org/wiki/Nitq mədəniyyəti/Nitq mədəniyyəti haqqında anlayış; Gülsəda Quluzadə. Nitq mədəniyyəti. Nitqin yığcamlığı üzərində iş.//Təhsil Problemləri, 5 may, 2014.http/www.tehsil problemleri.com//p=5164.
9. Норма языковая. Большая российская энциклопедия.2004-2017; old.vigenc.ru/linguistics/text/2671107.
10. Sadıqova S. Azərbaycan ədəbi dilinin normaları.// Beynəlxalq Tədqiqat. Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor.1.172. 2024 cild: 4 sayı 1/12-16; s.12-16, s.13.
11. Языковая норма и её функции. Виды языковых норм. oblakoz.ru/conspect/491464/yazykovaya-norma-i-ee-funksii-osnovnya-vidy-yazykovyh-norm.

***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***p.ü.f.d., baş müəllim***
***E-mail: Samina.abdullayeva.80@mail.ru***

**Samina Abdullayeva**

## THE PROBLEM OF ORAL LANGUAGE AND NORM IN THE AZERBAIJAN LANGUAGE

As a result of the analysis and research conducted in the article, it is possible to show that the norm has the following parameters.

The norm is a historical category. The norm occurs through the activity of voluntary and involuntary speech acts. Norms constitute the internal mechanism of information exchange, dissemination, transmission and storage in the language. Since the norm is a historical category, it can change, improve, and stabilize. The norm maintains balance in language elements, regulates their system of rules in accordance with the requirements of the intensity of the speech act. The norm has a social character and demonstrates its activity in a separate social language environment. Thus, the norm can be briefly expressed as follows: The norm is a system of rules that has been historically formed on the basis of voluntary and involuntary speech acts, changes and renews with the intensification of information, is used in the appropriate social environment, and regulates all elements of the language structure. More succinctly, a norm is a system of rules that constitutes its soul, its breath.

**Key words**: *spoken language, oral language, concept of norm, information*

**Самина Абдуллаева**

## ПРОБЛЕМА УСТНОЙ РЕЧИ И НОРМА В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

В результате проведенного в статье анализа и исследования можно показать, что норма имеет следующие параметры.

Норма — это историческая категория. Норма реализуется через активность произвольных и непроизвольных речевых актов. Нормы представляют собой внутренний механизм обмена, распространения, передачи и хранения информации на языке. Поскольку норма — историческая категория, она может изменяться, совершенствоваться и стабилизироваться. Норма поддерживает равновесие в языковых элементах, регулируя их систему правил в соответствии с требованиями интенсивности речевого акта. Норма носит социальный характер и проявляет свою активность в определенной социальной языковой среде. Таким образом, норму можно кратко сформулировать следующим образом: Норма — это система правил, которая исторически сложилась на основе произвольных и непроизвольных речевых актов, изменяется и обновляется по мере усиления информации, используется в соответствующей социальной среде и регулирует все элементы языковой структуры. Говоря короче, норма — это система правил, составляющих ее душу, ее дыхание.

**Ключевые слова**: *разговорная речь, устная речь, понятие нормы, информация*

*AMEA-nın müxbir üzvü Əbüləz Quliyev tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 15.07.2025**
**Son daxilolma tarixi:08.08.2025**